# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Yaşıllaşdırma və Landşaft Quruluşu” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis edilməsi haqqında

“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanının 8.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində payları dövlətə məxsus, təsərrüfathesablı və Naxçıvan Muxtar Respublikasının ərazisində yaşıllaşdırma sahəsində xidmətlər göstərən, yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, müvafiq infrastrukturun inkişafı ilə bağlı digər işləri yerinə yetirən "Yaşıllaşdırma və Landşaft Quruluşu" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilsin.

2. "Yaşıllaşdırma və Landşaft Quruluşu" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə:

2.1.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.1.2. Cəmiyyətin strukturunun, aparatının işçilərinin say həddinin və xərclər smetasının təsdiq edilməsi;

2.1.3. Cəmiyyətin icra orqanının (kollegial və ya təkbaşçı) yaradılması, səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.1.4. Cəmiyyətin icra orqanının rəhbərinin, onun müavinlərinin, nümayəndəlik və filiallarının, həmçinin tabeliyindəki qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.1.5. Cəmiyyətin müşahidə şurasının seçilməsi;

2.1.6. Cəmiyyətin inkişaf və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;

2.1.7. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

2.1.8. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 50 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə:

2.2.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, tabeliyindəki hüquqi şəxs statuslu qurumların yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

2.2.2. bu Qərarda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Müəyyən edilsin ki, Cəmiyyətin yenidən təşkil və (və ya) ləğv edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

4. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

4.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Cəmiyyətin nizamnaməsini bir ay müddətində təsdiq etsin və Cəmiyyətin fəaliyyətinin təşkili üçün zəruri maddi texniki təminat məsələlərini həll etsin;

4.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti öz səlahiyyətləri daxilində Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün tədbirlər həyata keçirsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “27” noyabr 2023-cü il

№ 143